**2025-ci ilin xronikası**

16 yanvar 2025-ci il tarixində Bakı şəhərində Türk Dövlətləri Təşkilatının Gömrük Xidməti Rəhbərlərinin X İclası keçirilib. Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğız gömrük xidmətləri rəhbərlərinin qatıldığı iclasda BMT-nin, Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının, Gürcüstan və Macarıstan gömrük xidmətlərinin nümayəndələri də iştirak ediblər. İclasda Sadələşdirilmiş Gömrük Dəhlizinin Yaradılması, "Transxəzər Gömrük Tranzit Portalı", Elektron möhür və müasir izləmə texnologiyaları, Səlahiyyətli İqtisadi Operator mövzularında müzakirələr aparılıb.



16 yanvar 2025-ci il tarixdə Türk Dövlətləri Təşkilatının Gömrük Xidməti Rəhbərlərinin X İclası çərçivəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin nümayəndə heyəti ilə Türkiyə Cümhuriyyəti Ticarət nazirinin müavini və Gömrük Administrasiyasının rəhbəri Sezai Uçarmak, Qazaxıstan Respublikası Maliyyə Nazirliyinin Dövlət Gəlirləri Komitəsinin sədr müavini Kairat Cumaqulov, Qırğız Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidmətinin sədri Samat İsabekov və Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyasının İcraçı katibinin müavini Dmitri Mariyasin arasında ikitərəfli görüşlər keçirilib. Görüşlərdə gömrük orqanları arasında əlaqələrin daha da gücləndirilməsi, məlumat mübadiləsinin genişləndirilməsi, qabaqcıl təcrübələrin bölüşdürülməsi və əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb. Tədbir çərçivəsində "Türk Dövlətləri Təşkilatının Hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında Saziş"in Məlumat Mübadiləsi üzrə Texniki Şərtlər Sənədi, e-BYD prosedurunun tətbiqi üzrə Fəaliyyət Planı (Yol Xəritəsi) və "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikası Ticarət Nazirliyi arasında gömrük sahəsində əməkdaşlığın inkişafı üzrə 2025-ci il Fəaliyyət Planı" imzalanmışdır.






24 fevral 2025-ci il tarixdə Bakı şəhərində “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Pakistan İslam Respublikasının Gömrük Xidməti (Federal Gəlirlər Şurası) arasında ilkin elektron məlumat mübadiləsinin yaradılması haqqında Anlaşma Memorandumu” imzalanmışdır.

17 fevral 2025-ci il tarixlərində Avropa PGRO-nun Bakı şəhərində yerləşən ofisində "Yeni Risklər və Perspektivlər: Sintetik Narkotiklər, TBML (Ticarət Əsaslı Çirkli Pulların Yuyulması), Məlumat bazası, Süni İntellekt, Kriptovalyutalar" mövzusunda hibrid formatda seminar keçirilmişdir. Seminar Dövlət Gömrük Komitəsinin nümayəndələri də daxil olmaqla, ÜGT-nin Avropa Regionundan 150-dən çox gömrük əməkdaşının iştirakı ilə hibrid formatda təşkil edilib. Tədbirin əsas məqsədi müasir texnologiyalar və gömrük-ticarət əməliyyatlarında yaranan yeni çağırışlar üzrə bilik və təcrübə mübadiləsinin aparılması, gömrük xidmətlərinin yeni risklərə uyğunlaşma qabiliyyətinin artırılması, ticarət əsaslı çirkli pulların yuyulmasına qarşı mübarizənin gücləndirilməsi və kriptovalyutalarla bağlı artan çağırışlara qarşı hazırlıq səviyyəsinin yüksəldilməsi olub.



20 fevral 2025-ci il tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Rusiya Federasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimov və Qazaxıstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Alim Bayel ilə görüşüb. Görüşlərdə gömrük sahəsində əməkdaşlığa dair məsələlər müzakirə olunub, beynəlxalq ticarətin asan və sürətli şəkildə həyata keçirilməsi, tranzitin inkişaf etdirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.





24 fevral 2025-ci il tarixdə Bakı şəhərində "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Pakistan İslam Respublikasının Gömrük Xidməti (Federal Gəlirlər Şurası) arasında ilkin elektron məlumat mübadiləsinin yaradılması haqqında Anlaşma Memorandumu" imzalanmışdır.

6 mart 2025-ci il tarixdə Dövlət Gömrük Komitəsində Gürcüstan Gəlirlər Xidmətinin Gömrük Departamentinin rəis müavini İrakli Tevtoradze və Tbilisi Beynəlxalq Hava Limanında gömrük postunun rəisi Levan Kakabadze ilə görüş keçirilib. Görüşdə iki ölkənin gömrük xidmətləri arasında qarşılıqlı əməkdaşlığın perspektivləri, məlumat və təcrübə mübadiləsinin gücləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.




12-13 mart 2025-ci il tarixdə Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində Asiya İnkişaf Bankının Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) Proqramı çərçivəsində icra edilən "CAREC Təkmilləşdirilmiş Tranzit Sistemi və Məlumatların Ümumi Mübadiləsi" (CATS) layihəsinin pilot mərhələsi üzrə texniki işçi qrupunun iclası keçirilib. Tədbirdə Azərbaycan, Gürcüstan, Özbəkistan gömrük xidmətlərinin, Asiya İnkişaf Bankının, ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin nümayəndələri və beynəlxalq məsləhətçilər iştirak ediblər.



10 mart 2025-ci il tarixdə Avstriya Respublikasının paytaxtı Vyana şəhərində BMT-nin Narkotik Vasitələr üzrə Komissiyasının 68-ci sessiyası öz işinə başlayıb. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırovun rəhbərliyi ilə nümayəndə heyəti iştirak edir. Sessiyanın yüksək səviyyəli seqmentində çıxış edən Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov Azərbaycan Respublikasının qoşulduğu BMT-nin 3 əsas konvensiyaları və digər sənədləri ilə ümumbəşəri narkotiklər probleminin həlli istiqamətində üzərinə düşən öhdəliklərinə sadiq olduğunu, Azərbaycanda güclü siyasi iradə və prinsipial mövqe sərgilənməklə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı qətiyyətli mübarizə aparıldığını vurğulayıb. Eyni zamanda, bu sahədə dövlət siyasətini həyata keçirən Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası tərəfindən dəyişən, yeni təhdid və çağırışlara çevik reaksiya verməklə görülən kompleks tədbirlər, Azərbaycanın hüquq-mühahizə orqanları tərəfindən qanunsuz dövriyyədən çıxarılan narkotiklər barədə məlumat verib.




11 mart 2025-ci il tarixdə Vyanada səfərdə olan Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov BMT-nin Narkotik Vasitələr üzrə Komissiyasının 68-ci sessiyasında Sinqapur nümayəndə heyətinin rəhbəri, Sinqapurun Daxili İşlər və Milli İnkişaf Nazirliyinin dövlət naziri Muhammad Faysal İbrahimlə görüşüb. Görüş zamanı narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub.



12 mart 2025-ci il tarixdə Avstriya Respublikasının Vyana şəhərində keçirilən BMT-nin Narkotik Vasitələr üzrə Komissiyasının 68-ci sessiyası çərçivəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırovun başçılıq etdiyi nümayəndə heyəti "Təchizat zəncirlərinin təhlükəsizliyinin təmin edilməsi: beynəlxalq nəqliyyat dəhlizlərində narkotiklərin qanunsuz dövriyyəsi və digər qanunsuz fəaliyyətlərlə mübarizədə hüquq-mühafizə orqanlarının rolu" adlı paralel tədbirdə iştirak edib.



12 mart 2025-ci il tarixdə Vyanada səfərdə olan Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) Nüvə təhlükəsizliyi bölməsinin direktoru Yenela Buqlova ilə görüşüb. Görüş zamanı nüvə və radioaktiv materialların qanunsuz daşınması və dövriyyəsinə qarşı mübarizədə Azərbaycan gömrük orqanları tərəfindən görülən tədbirlər barədə məlumat verilib, bu sahədə gömrük orqanlarının əməkdaşlarının potensialının artırılmasında AEBA ilə əməkdaşlıq perspektivləri müzakirə olunub.



12 mart 2025-ci il tarixdə Vyanada səfərdə olan Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov BMT-nin Vyana bölməsinin baş direktoru, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (BMTNCİ) icraçı direktoru Qada Vali ilə görüşüb. Görüş zamanı qlobal səviyyədə narkotiklər probleminə qarşı mübarizə sahəsində BMTNCİ-nin rolu və mandatının əhəmiyyəti, eləcə də Narkotik Vasitələr üzrə Komissiyanın fəaliyyətinin vacibliyi vurğulanıb. Bundan başqa, Azərbaycanda narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində gömrük orqanlarının xüsusi rolu vurğulanıb, gömrük orqanlarının bu sahədə imkanlarının gücləndirilməsi işində BMTNCİ-nin proqram və alətlərindən istifadənin genişləndirilməsi məsələləri müzakirə olunub.




14 mart 2025-ci il tarixində Dövlət Gömrük Komitəsində İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi cənab Əsəd Məcid Xanın rəhbərlik etdiyi nümayəndə heyəti Dövlət Gömrük Komitəsində olub və DGK sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırovla görüş keçirilib.Görüşdə İƏT üzv ölkələrin gömrük xidmətləri arasında əlaqələrin daha da gücləndirilməsinin əhəmiyyətindən bəhs edilib, eyni zamanda İƏT Gömrük Xidmətləri Rəhbərləri Şurasının növbəti iclasında müzakirə olunacaq məsələlər - qaçaqmalçılıq və gömrük qaydalarının pozulmasına dair İƏT məlumat bazasının yaradılması, gömrük işi sahəsində qarşılıqlı inzibati yardım, İƏT regionunda gömrük məsələlərində potensialın gücləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.




8 aprel 2025-ci il tarixində Dövlət Gömrük Komitəsində Qazaxıstan Respublikasının Maliyyə Nazirliyi Dövlət Gəlirlər Komitəsinin nümayəndə heyəti ilə görüş keçirilib. Dövlət Gömrük Komitəsi sədrinin müavini Fuad Məmmədov və Qazaxıstan Respublikasının Maliyyə Nazirliyi Dövlət Gəlirlər Komitəsinin Gömrük Nəzarəti Departamentinin direktorunun vəzifələrini icra edən Qabit Orazovun rəhbərlik etdikləri nümayəndə heyətləri arasındakı görüş gömrük sahəsində əməkdaşlığın gücləndirilməsi, qarşılıqlı təcrübə və məlumat mübadiləsinin genişləndirilməsi məqsədilə təşkil edilib. Görüşdə Səlahiyyətli İqtisadi Operator, bəyanetmə, gömrük nəzarəti və digər mövzularda fikir mübadiləsi aparılıb, Avtomatlaşdırılmış Risk Analiz Sistemi (ARAS) layihəsi barədə təqdimat nümayiş etdirilib. Səfər çərçivəsində nümayəndə heyətinin üzvləri Rusiya Federasiyası ilə sərhəddə yerləşən “Samur” və “Xanoba” dövlət sərhədindən buraxılış məntəqələrinin fəaliyyəti ilə tanış olub, sərhədkeçmə proseslərini əyani şəkildə izləyiblər.



15 aprel 2025-ci il tarixdə Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatı (TDT) Gömrük Xidməti Rəhbərlərinin qeyri-rəsmi iclasında Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.




15 aprel 2025-ci il tarixdə Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatı (TDT) Gömrük Xidməti Rəhbərlərinin qeyri-rəsmi iclası çərçivəsində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Türkiyə Respublikası ticarət nazirinin müavini, Gömrük Administrasiyasının rəhbəri Sezai Uçarmak və Macarıstan Milli Vergi və Gömrük Administrasiyasının rəhbərinin gömrük məsələləri üzrə müavini Kristof Peter Bakai ilə keçirilən görüşlərdə ölkələrimizin gömrük xidmətləri arasında mövcud əlaqələrin perspektivlərindən bəhs edilib, gömrük işi sahəsində məlumat və təcrübə mübadiləsinin, əməkdaşlığın daha da genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb.




16 aprel 2025-ci il tarixdə Dövlət Gömrük Komitəsində Koreya Respublikasının Səlahiyyətli İqtisadi Operatorlar (SİO) Assosiasiyasının nümayəndə heyəti ilə görüş keçirilib. Dövlət Gömrük Komitəsi sədrinin müavini Fuad Məmmədov və Koreya Respublikasının SİO Assosiasiyasının (KAA) vitse-prezidenti Kim Çanq Yanqın rəhbərlik etdikləri nümayəndə heyətləri arasındakı görüş SİO sahəsində qabaqcıl təcrübələrin öyrənilməsi və əməkdaşlığın gücləndirilməsi məqsədilə təşkil edilib. Görüşdə SİO sahəsində ikitərəfli əməkdaşlıq imkanları müzakirə olunub, SİO Proqramına dair təqdimatlar nümayiş etdirilib, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



22 aprel 2025-ci il tarixdə Dövlət Gömrük Komitəsində Türkiyə Respublikası Ticarət Nazirliyinin nümayəndə heyəti ilə görüş keçirilib. Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Natiq Şirinovla Türkiyə Respublikası Ticarət Nazirliyinin Statistika və Qiymətləndirmə İdarəsinin rəisi Çağlayan Aslanın rəhbərlik etdikləri nümayəndə heyətləri arasında keçirilən görüşdə gömrük işinin təşkili sahəsində statistikanın aparılması, statistik məlumatların qiymətləndirilməsi, iki ölkənin gömrük orqanları arasında məlumat mübadiləsi, güzgülü statistika və digər istiqamətlərdə qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsinin vacibliyi vurğulanıb.



29 aprel 2025-ci il tarixdə Belçika Krallığının paytaxtı Brüssel şəhərində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Avropa Regionu Gömrük Xidməti Rəhbərlərinin Konfransında Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir. Konfransın gündəliyindəki məsələlərdən biri də COP29 çərçivəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin təşəbbüsü ilə 2024-cü il 20 noyabr tarixində Bakıda keçirilmiş "Yaşıl Gömrük - Yüksək Gömrük Rəsmilərinin Dialoqu" adlı tədbirin Bakı Bəyannaməsinin təqdimatı olmuşdur. Bəyannamə beynəlxalq gömrük sistemində yaşıl gömrük prinsiplərinin inkişaf etdirilməsi baxımından strateji əhəmiyyət daşıyır. İclasda çıxış edən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov "Yaşıl Gömrük" təşəbbüslərinin qlobal gömrük sisteminin strateji inkişafı baxımından xüsusi əhəmiyyət daşıdığını vurğulayaraq Bakı Bəyannaməsinin bu sahədə qəbul olunmuş ilk institusional və çoxtərəfli sənəd kimi tarixə düşdüyünü qeyd edib. O, gömrük xidmətlərinin ətraf mühitin qorunması və iqlim dəyişikliyi ilə mübarizədə artan roluna diqqət çəkərək Bakı Bəyannaməsinin bu istiqamətdə gələcək təşəbbüslər üçün strateji əsas və istiqamətverici sənəd ola biləcəyini bildirib.






12 may 2025-ci il tarixində Macarıstanın Milli Vergi və Gömrük Administrasiyasının nümayəndələri tərəfindən Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün təcrübələrin bölüşülməsi üzrə onlayn görüş təşkil olunub. Görüşdə Macarıstanın Milli Vergi və Gömrük Administrasiyasının elektron ticarət sistemi, bu sahədə Macarıstan gömrüyünün əldə etdiyi təcrübə və beynəlxalq poçt göndərişlərinin idarə edilməsinə dair təqdimat nümayiş

etdirilib, elektron ticarət sahəsində qabaqcıl təcrübələr və yeniliklərlə bağlı fikir mübadiləsi aparılıb.






23 may 2025-ci il tarixində Dövlət Gömrük Komitəsində Cənubi Koreyanın HO ENT Korporasiyasının nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə iki ölkənin gömrük orqanlarının əməkdaşlıqdan məmnunluqla bəhs edilib, gömrük işinin təşkili sahəsində qabaqcıl təcrübələrin öyrənilməsi, müasir texnologiyaların tətbiqi, koreyalı mütəxəssislərin avadanlıqlarla təminat və təlim bacarıqlarının artırılması baxımından göstərdikləri dəstək, birgə layihələrin icrası ilə bağlı fikir mübadiləsi aparılıb. Daha sonra “TAKTIC - Azərbaycanın Orta Dəhliz üçün Transxəzər Gömrük Bilik və Təlim Platforması” layihəsi təqdim olunub.




27 may 2025-ci il tarixdə Naxçıvan Baş Gömrük İdarəsinin “Sədərək” gömrük postunda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin və Türkiyə Respublikası Ticarət Nazirliyinin nümayəndələri arasında görüş keçirilmişdir. Görüşdə Türkiyə Respublikasının Gömrük Mühafizəsi Baş İdarəsinin Baş direktor müavini Osman Yıkın və Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı səfirliyində Dövlət Gömrük Komitəsinin nümayəndəsi Əsgər Məmmədov iştirak ediblər. Tərəflər təhlükəsizlik, hüquqpozmalara qarşı mübarizə istiqamətində əməkdaşlığın gücləndirilməsi, həmçinin nəqliyyat və yük axınlarının sərhədkeçmə, gömrük nəzarəti proseslərinin sürətləndirilməsi, bu sahədə qarşıya çıxan məsələlərin operativ qaydada həlli ilə bağlı fikir mübadiləsi aparıblar.



4 iyun 2025-ci il tarixində Qırğız Respublikasının İssık-Kul vilayətinin Bayet kəndində MDB iştirakçısı olan dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 80-ci iclasında Azərbaycan

Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.




11 iyun 2025-ci il tarixində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Bakı şəhərində yerləşən Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin və ÜGT-nin Avropa Regionu üzrə Regional Tədris Mərkəzlərinin 13-cü iclası keçirilib. İclasda ÜGT Katibliyinin nümayəndələri, Azərbaycan, Qazaxıstan, Qırğız Respublikası, Macarıstan, Şimali Makedoniya, Rusiya Federasiyası, Ukrayna və Türkmənistanda yerləşən Regional Təlim Mərkəzlərinin nümayəndələri iştirak ediblər. Tədbirin açılış mərasimində çıxış edən Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov ÜGT ilə uzunmüddətli və məhsuldar əməkdaşlıqdan məmnunluqla bəhs edib, inkişaf etməkdə olan ölkələrin gömrük xidmətlərinə təlim, texniki yardım və ekspert dəstəyi göstərmək məqsədilə Azərbaycanın təşəbbüsü ilə Gömrük Əməkdaşlıq Fondunun yaradıldığını bildirib. O da qeyd olunub ki, ÜGT-nin strateji inkişaf planında yer alan rəqəmsal transformasiya, əməkdaşların potensialının gücləndirilməsi, texniki əməkdaşlıq, institusional inkişaf məsələləri gömrük sahəsində inzibatçılığın təkmilləşdirilməsinə mühüm töhfə verir.




17 iyun 2025-ci il tarixində Dövlət Gömrük Komitəsində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) dürüstlük üzrə ekspertləri xanım Mersedes Cano və Takayuki Fukuşimo ilə görüş keçirilib. Görüşdə ÜGT ilə Azərbaycan gömrüyü arasındakı uzunmüddətli, işgüzar münasibətlərdən məmnunluq ifadə edilib, həmçinin şəffaflıq sahəsində yeni yanaşmaların, qabaqcıl təcrübələrin öyrənilməsinin vacibliyi vurğulanıb. Azərbaycanda şəffaflığın təmin edilməsi istiqamətində xüsusi dövlət proqramının mövcudluğu, strateji hədəflərin müəyyənləşdirildiyi, o cümlədən gömrük sistemində də həmin proqrama uyğun olaraq uzunmüddətli fəaliyyət planının hazırlandığı diqqətə çatdırılıb. Bu istiqamətdə uğurlu nəticələrin əldə edilməsi üçün gömrük sistemində elektron həllərin tətbiqinin genişləndirildiyi, əməkdaşların potensialının artırılması üçün aidiyyəti dövlət qurumları ilə

birlikdə təlimlərin təşkil olunduğu bildirilib. ÜGT ekspertləri tərəfindən mövzu ilə bağlı gömrük əməkdaşları üçün 16-20 iyun tarixlərində keçirilmiş seminarın yeniliklərin öyrənilməsi və bu istiqamətdə potensialın gücləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb.





17 iyun 2025-ci il tarixində Dövlət Gömrük Komitəsində Macarıstanın Milli Vergi və Gömrük Administrasiyasının rəhbəri Ferenc Vagujhelyinin və Estoniya Vergi və Gömrük Şurasının sədri Raigo Uukkivinin rəhbərlik etdikləri nümayəndə heyətləri ilə görüşlər keçirilib. Görüşlərdə gömrük orqanları arasında əməkdaşlıqdan məmnunluqla bəhs edilib, mövcud əlaqələrin perspektivləri ilə bağlı müzakirələr aparılıb, xüsusilə rəqəmsal gömrük, elektron ticarət, risklərin idarəolunması, ticarətin asanlaşdırılması sahəsində təcrübə mübadiləsinin vacibliyi diqqətə çatdırılıb. Görüş çərçivəsində Dövlət Gömrük Komitəsinin tətbiq etdiyi yeniliklər, rəqəmsal həllər, həmçinin gələcək hədəflərə dair təqdimatlar nümayiş etdirilib.




26 iyun 2025-ci il tarixində Belçika Krallığının paytaxtı Brüssel şəhərində, Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Baş qərargahında Gömrük Əməkdaşlıq Şurasının 145/146-cı sessiyalarında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir. Sessiyalarının sonuncu günündə təşkilatın rəhbər strukturlarında təmsilçiliyin formalaşdırılması məqsədilə seçkilər keçirilib. ÜGT çərçivəsində həyata keçirdiyi fəaliyyət və üzv dövlətlərin gömrük xidmətlərinin dəstəyi ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ÜGT-nin Siyasi Komissiyasına üzv seçilib.




26 iyun 2025-ci il tarixində Belçika Krallığının paytaxtı Brüssel şəhərində, Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Baş qərargahında Gömrük Əməkdaşlıq Şurasının 145/146-cı sessiyaları çərçivəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov ilə ÜGT-nin Baş katibi İan Saunders arasında ikitərəfli görüş baş tutub. Görüş zamanı Ümumdünya Gömrük Təşkilatının modernizasiya planına dair dəstək bir daha vurğulanıb. Tərəflər arasında aparılan müzakirələrdə Dövlət Gömrük Komitəsi ilə ÜGT Katibliyi arasında mövcud əməkdaşlıq mexanizmlərinin genişləndirilməsi və bu əlaqələrin daha dayanıqlı və institusional əsasda inkişaf etdirilməsi məsələləri diqqət mərkəzində olub.



27 iyun 2025-ci il tarixində Belçika Krallığının paytaxtı Brüssel şəhərində, Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Baş qərargahında Gömrük Əməkdaşlıq Şurasının 145/146-cı sessiyaları çərçivəsində Azərbaycan nümayəndə heyətinin Çin Xalq Respublikası Baş Gömrük İdarəsinin nümayəndələri ilə ikitərəfli görüşü keçirilib. Görüş zamanı iki ölkənin gömrük orqanları arasında qarşılıqlı əməkdaşlıq üzrə nailiyyətlər və gələcək inkişaf perspektivləri müzakirə olunub. COP29-da iştirak, eləcə də Azərbaycan Gömrük Xidməti tərəfindən hazırlanan "Yaşıl Gömrük" konsepsiyası üzrə Bakı Bəyannaməsinə göstərilən dəstəyə görə Çin Gömrük Xidmətinə təşəkkür ifadə olunub. Orta Dəhliz boyunca daşımaların həcminin artdığı və Çindən gələn yüklərin bu marşrutda üstünlük təşkil etdiyi nəzərə alınaraq tranzit sahəsində qarşılıqlı əməkdaşlığın gücləndirilməsinin vacibliyi qeyd edilib.



2 iyul 2025-ci il tarixdə Bakı şəhərində “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Özbəkistan Respublikasının İqtisadiyyat və Maliyyə Nazirliyi arasında səlahiyyətli iqtisadi operator institutlarının qarşılıqlı tanınması haqqında Saziş" imzalanmışdır.

4 iyul 2025-ci il tarixdə “Elektron kommersiya” sahəsində Bolqarıstan təcrübəsinin öyrənilməsi məqsədilə Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün Bolqarıstan gömrük xidmətinin nümayəndələri tərəfindən, həmçinin “Əsas Fəaliyyət Göstəriciləri” mövzusunda Özbəkistan təcrübəsinin öyrənilməsi məqsədilə onlayn görüşlər keçirilmişdir.

22-24 iyul 2025-ci il tarixdə Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində “ÜGT-nin Məlumat analitikasının tətbiqi və təşkilatı səviyyədə məlumatlandırmanın təşviqi üzrə” seminar keçirilmişdir.

3 sentyabr 2025-ci il tarixdə Braziliya gömrük xidmətinin nümayəndələri ilə “COP30” tədbirinin keçirilməsi üçün Azərbaycan gömrük xidmətinin bu sahədə təcrübəsinin öyrənilməsi məqsədilə onlayn görüş keçirilmişdir.






5 sentyabr 2025-ci il tarixdə Dövlət Gömrük Komitəsində Koreya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Kımqu Kanq ilə görüş keçirilib. Görüş zamanı Azərbaycan və Koreya gömrük xidmətləri arasında mövcud işgüzar əlaqələr və əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub. Tərəflər arasında gömrük qiymətləndirilməsi, informasiya texnologiyaların tətbiqi və digər sahələrdə qarşılıqlı təcrübə mübadiləsi ilə bağlı fikir mübadiləsi aparılıb.



8 sentyabr 2025-ci il tarixində Qazaxıstan Respublikasının Türkestan şəhərində "Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin gömrük idarələri arasında risklərin idarəolunması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin gömrük idarələri arasında gömrük laboratoriyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" və "Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin gömrük xidməti rəhbərlərinin BYD Kitabçası tətbiq edilməklə beynəlxalq yükdaşımaları haqqında Konvensiyanın (1975, Cenevrə) 11-ci Əlavəsinin tətbiqinə dair Birgə Bəyanatı" imzalanmışdır.



8 sentyabr 2025-ci il tarixində Qazaxıstan Respublikasının Türkestan şəhərində "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Özbəkistan Respublikası İqtisadiyyat və Maliyyə Nazirliyi yanında Gömrük Komitəsi arasında 2025-2026-cı illəri əhatə edən qarşılıqlı Fəaliyyət Planı" imzalanmışdır.



8 sentyabr 2025-ci il tarixində Qazaxıstanın Türküstan şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının Gömrük İdarələri Rəhbərlərinin XI iclası çərçivəsində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Qırğız Respublikasının Nazirlər Kabineti yanında Dövlət Gömrük Xidmətinin sədri Almaz Saliev ilə görüşüb. Görüşdə iki ölkənin mehriban dostluq və qardaşlıq münasibətlərindən məmnunluqla bəhs edilib, gömrük xidmətləri arasında mal və nəqliyyat vasitələri üzrə ilkin məlumat

mübadiləsinin həyata keçirilməsini nəzərdə tutan sazişin hazırlanması, gələcək inkişaf istiqamətləri barədə müzakirələr aparılıb, qarşılıqlı əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyi vurğulanıb.




9 sentyabr 2025-ci il tarixdə Dövlət Gömrük Komitəsində ölkəmizdə səfərdə olan Amerika Birləşmiş Ştatlarının Orta Dəhliz üzrə Sertifikatlaşdırılmış Ticarət Missiyasının nümayəndələri ilə görüş keçirilib. Missiyanın məqsədi ABŞ-nın özəl sektor nümayəndələrinin Orta Dəhliz ölkələrində ticarət, enerji, infrastruktur və logistika sahələrində mövcud imkanlarla tanış olması, müvafiq sahələrdə əməkdaşlıq perspektivlərinin qiymətləndirilməsi və əlaqələrin qurulmasıdır. Görüşdə Orta Dəhliz boyu gömrük prosedurlarının rəqəmsal həllər əsasında sadələşdirilməsi layihəsi, dəhlizin cəlbediciliyinin artırılmasına töhfə vermək məqsədilə region ölkələrinin gömrük xidmətləri ilə qurulan işgüzar əlaqələr barədə məlumat verilib, eləcə də Azərbaycan və ABŞ gömrük xidmətləri arasında əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.



17 sentyabr 2025-ci il tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Qırğız Respublikası Gömrük Xidməti arasında rəqəmsal idarəetmə, informasiya texnologiyalarının tətbiqi və süni intellektdən istifadəyə dair təcrübə mübadiləsinin aparılması üzrə onlayn görüş keçirilmişdir.

18 sentyabr 2025-ci il tarixdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov İsrail Dövlətinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ronen Kraus ilə görüşüb. Görüşdə iki ölkənin gömrük orqanları arasında mövcud qarşılıqlı əlaqələrin gələcək inkişafı, məlumat və təcrübə mübadiləsi, texnoloji avadanlıqların təminatı istiqamətində əməkdaşlığın perspektivləri ilə bağlı müzakirələr aparılıb.



26 sentyabr 2025-ci il tarixində Türkiyədə yerləşən azad zonalarda gömrük işi və əməliyyatlarının və azad zonalara giriş-çıxış qeydiyyat prosedurlarının həyata keçirilməsi barədə Türkiyə Ticarət Nazirliyi tərəfindən DGK nümayəndələri üçün onlayn seminar keçirilmişdir.

28 sentyabr – 2 oktyabr 2025-ci il tarixlərində Macarıstan Milli Vergi və Gömrük Administrasiyasının nümayəndə heyətinin Azərbaycana işgüzar səfəri baş tutmuşdur. Macarıstanın Milli Vergi və Gömrük Administrasiyasının nümayəndə heyəti ilə keçirilmiş görüş Azərbaycan gömrük xidmətində tətbiq edilən süni intellekt əsaslı risklərin təhlili sistemi, həmçinin informasiya texnologiyalarına əsaslanan həllərlə bağlı əldə edilən qabaqcıl təcrübələrin öyrənilməsi məqsədilə təşkil olunub. Dövlət Gömrük Komitəsi sədrinin müavini Fuad Məmmədov və Macarıstanın Milli Vergi və Gömrük Administrasiyasının Risklərin Təhlili və Data Elmləri Departamentinin rəisi Attila Mizsanyinin rəhbərlik etdikləri nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə Azərbaycan və Macarıstan arasındakı münasibətlərdən, həmçinin iki ölkənin gömrük orqanlarının səmərəli əməkdaşlığından məmnunluqla bəhs edilib. Həmçinin risklərin idarə olunması, informasiya texnologiyalarının və süni intellektin tətbiqi sahələrində əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulanıb.



7 oktyabr 2025-ci il tarixdə Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan hökumətləri arasında Gömrük Məsələləri üzrə Üçtərəfli Komitənin 4-cü iclası keçirilib. İclasda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov, Türkiyə Respublikası Ticarət nazirinin müavini Sezai Uçarmak, Gürcüstan Maliyyə Nazirliyinin Gəlirlər Xidmətinin baş direktoru İrakli Beraianın rəhbərlik etdikləri nümayəndə heyətləri iştirak edib. Tərəflər arasında ticarətin asanlaşdırılması, tranzit imkanlarının artırılması və regional iqtisadi əməkdaşlığın gücləndirilməsi məqsədilə gömrüklə bağlı məsələlərə dair fikir mübadiləsi aparılıb.



7 oktyabr 2025-ci il tarixdə Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikasının Ticarət Nazirliyi arasında gömrük məsələləri üzrə Birgə Komitənin beşinci iclası keçirilib. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırovun, Türkiyə Respublikası Ticarət nazirinin müavini Sezai Uçarmakın rəhbərlik etdikləri nümayəndə heyətlərinin iştirak etdiyi iclasda tərəflər iki qardaş ölkənin gömrük orqanları arasındakı əməkdaşlıqdan məmnunluqla bəhs ediblər.



13 oktyabr 2025-ci il tarixdə Bakı şəhərində Azərbaycan Respublikası, İran İslam Respublikası və Rusiya Federasiyası gömrük xidmətləri arasında nəqliyyat, energetika və gömrük sahələrində əməkdaşlıq məsələlərinə həsr olunan üçtərəfli görüş keçirilib. Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev, Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçuk və İran İslam Respublikasının yol və şəhərsalma naziri Fərzanə Sadeqin iştirakı ilə keçirilən tədbir çərçivəsində üç ölkənin müvafiq qurumlarının nümayəndələri arasında görüşlər təşkil olunub. Gömrük xidmətlərinin nümayəndə heyətlərinin işçi görüşündə tranzit yük daşımalarının artırılmasına birgə səy göstərilməsi məqsədilə gömrük orqanlarının əməkdaşlığının gücləndirilməsinə dair fikir mübadiləsi aparılıb. Görüş çərçivəsində “Azərbaycan Respublikası, Rusiya Federasiyası və İran İslam Respublikası arasında tranzit yük daşımalarının artırılmasına birgə səy göstərilməsi məqsədilə gömrük orqanlarının qarşılıqlı fəaliyyəti üzrə üçtərəfli işçi qrup haqqında” Əsasnamə və görüşün protokolu imzalanıb.




21 oktyabr 2025-ci il tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov İran İslam Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Müctəba Dəmirçilu ilə görüşüb. Görüşdə iki ölkənin gömrük xidmətləri arasındakı münasibətlərdən, iqtisadi əlaqələrin gücləndirilməsi, qarşılıqlı ticarət dövriyyəsinin artırılmasında gömrük orqanlarının rolundan bəhs edilib.



28 oktyabr 2025-ci il tarixində Belçika Krallığının paytaxtı Brüssel şəhərində, Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Baş qərargahında ÜGT-nin Daimi Texniki Komitəsinin 249/250-ci sessiyaları keçirilib. Sessiyalarda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti polkovniki Fuad Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti, həmçinin Azərbaycanın Belçika Krallığı və Lüksemburq Böyük Hersoqluğundakı səfirliyinin nümayəndəsi iştirak edib. Sessiyada gömrük orqanlarının fəaliyyətinə dair aktual texniki və institusional məsələlər müzakirə olunub, əsas diqqət elektron ticarət, yaşıl gömrük təşəbbüsləri, ticarətin asanlaşdırılması, informasiya və kommunikasiya texnologiyaları, sərbəst zonalar və gömrük rəqəmsallaşması kimi mövzulara yönəlib.




29 oktyabr 2025-ci il tarixdə Hüquq-mühafizə Təlimləri üzrə Avropa İttifaqı Agentliyinin (CEPOL - European Union Agency for Law Enforcement Training) təşkilatçılığı ilə saxta

valyuta hallarının müəyyən edilməsi və qarşısının alınmasına dair onlayn tədbir keçirilmişdir.

30 oktyabr 2025-ci il tarixində Dövlət Gömrük Komitəsində İspaniya Krallığının Azərbaycan Respublikasındakı Səfirliyinin (iqamətgahı Ankarada olmaqla) iqtisadi və ticarət məsələləri üzrə nümayəndəsi İsak Martin Barbero və müvəqqəti işlər vəkili Xose Pedro Torrubia Asenxo ilə görüş keçirilmişdir.

13-14 noyabr 2025-ci il tarixlərində Braziliya Federativ Respublikasının Manaus şəhərində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 30-cu sessiyası (COP30) çərçivəsində Braziliya Federal Gəlirlər Xidmətinin Gömrük Administrasiyası tərəfindən “Yaşıl Gömrük: İnnovasiya və Dayanıqlılıq” adlı beynəlxalq yan tədbir keçirilib. Tədbirdə Braziliya Gömrük Administrasiyasının rəsmi dəvəti ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti, habelə Azərbaycanın Braziliyadakı səfiri və səfirliyin əməkdaşları, eləcə də Ümumdünya Gömrük Təşkilatı, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi, Braziliya, Avstriya, Almaniya, Rusiya, Portuqaliya, Honduras, Dominikan Respublikası, Madaqaskar, Kolumbiya və digər ölkələrin gömrük administrasiyalarının nümayəndələri iştirak ediblər.




13 noyabr 2025-ci il tarixində Braziliya Federativ Respublikasının Manaus şəhərində “Azərbaycan Respublikası Hökuməti ilə Braziliya Federativ Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı inzibati yardım haqqında Saziş” imzalanmışdır. Hökumətlərarası sazişi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov və Braziliya Federal Gəlirlər Xidmətinin Gömrük Administrasiyasının rəhbəri Fabiano Koelho imzalayıblar.Bu sənəd iki ölkə arasında gömrük işi sahəsində əməkdaşlığın genişləndirilməsi, ticarətin asanlaşdırılması, gömrük nəzarətinin səmərəliliyinin artırılması və beynəlxalq ticarət-təchizat zəncirinin təhlükəsizliyinin təmin edilməsi məsələlərində əhəmiyyət kəsb edir.



14 noyabr 2025-ci il tarixində Dövlət Gömrük Komitəsində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizə üzrə Mərkəzi Asiya Regional İnformasiya və Əlaqələndirmə Mərkəzinin (MARİƏM) nümayəndə heyəti ilə görüş keçirilib. Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Güloğlan Muradlı və MARİƏM-in direktoru Mahmud Xamidovun rəhbərlik etdikləri nümayəndə heyətləri arasında keçirilən görüş Mərkəzin fəaliyyətinin təkmilləşdirilməsi, Milli Əlaqələndiricilər Şurasının növbəti iclasına hazırlıq, eləcə də qeyri-qanuni transsərhəd narkotik dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlığın inkişaf perspektivlərinin müzakirəsi məqsədilə təşkil olunub.



17-19 noyabr 2025-ci il tarixlərində Bakı şəhərində Qırğız Respublikası Nazirlər Kabineti yanında Dövlət Gömrük Xidmətinin əməkdaşları üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən tətbiq edilən qabaqcıl təcrübələrin bölüşülməsinə dair tədbir keçirilib. Dövlət Gömrük Komitəsində Qırğız Respublikası Nazirlər Kabineti yanında Dövlət Gömrük Xidmətinin nümayəndə heyəti ilə keçirilmiş görüşdə iki ölkə arasında müxtəlif sahələrdə, o cümlədən gömrük işinin təşkili istiqamətində səmərəli əməkdaşlıqdan məmnunluqla bəhs edib. Qeyd olunub ki, gömrük işinin səmərəliliyinin artırılmasında təcrübə mübadiləsi mühüm amillərdən biridir və Azərbaycan gömrüyü bu istiqamətdə əldə etdiyi uğurlu nəticələri paylaşmağın ümumi işə fayda verəcəyi qənaətindədir.





19 noyabr 2025-ci il tarixdə Dövlət Gömrük Komitəsində ABŞ Dövlət Departamentinin İxrac Nəzarəti və Sərhəd Təhlükəsizliyi Proqramının regional müşaviri xanım Karen Çeyson ilə görüş keçirilmişdir. Görüşdə Azərbaycan gömrük xidməti tərəfindən həyata keçirilən innovativ layihələr barədə məlumat verilmişdir.

25 noyabr 2025-ci il tarixdə Dövlət Gömrük Komitəsinin nümayəndə heyətinin gömrük işi sahəsində qabaqcıl təcrübələrin öyrənilməsi məqsədilə Estoniya Respublikasına səfəri

zamanı Azərbaycan və Estoniya gömrük xidmətləri arasında risklərin idarə olunması, gömrük rəsmiləşdirilməsi, Səlahiyyətli İqtisadi Operator proqramı, gömrük işində ən son texnoloji həllərin tətbiqi və elektron ticarət üzrə qabaqcıl təcrübələrlə bağlı təqdimatlar nümayiş etdirilib, həmçinin qarşılıqlı maraq doğuran bir sıra mövzular ətrafında müzakirələr aparılıb.



28 noyabr 2025-ci il tarixdə Rusiya Federal Gömrük Xidməti və Dövlət Gömrük Komitəsinin nümayəndələri arasında qeyri-tarif tənzimlənməsi, ixrac nəzarəti tədbirlərinə riayət olunması, qadağa və məhdudiyyətlərə riayət olunmasının təmin edilməsi üzrə qarşılıqlı təcrübə mübadiləsinə dair onlayn görüş təşkil edilmişdir.

2 dekabr 2025-ci il tarixində Dövlət Gömrük Komitəsində İslam İnkişaf Bankı Qrupunun nümayəndə heyəti ilə görüş keçirilmişdir. Dövlət Gömrük Komitəsi sədrinin müavini Fuad Məmmədovun iştirakı ilə keçirilən görüşdə İslam İnkişaf Bankı Qrupu ilə münasibətlərdən məmnunluqla bəhs edilib, 2026-cı ildə təşkilatın Bakı şəhərində keçiriləcək illik toplantılarının təşkilində gömrük məsələlərinə dair fikir mübadiləsi aparılıb.



2 dekabr 2025-ci il tarixində Qvatemalanın Antigua şəhərində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Siyasi Komissiyasının 93-cü sessiyasında Azərbaycan Respublikasını Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir.




4 dekabr 2025-ci il tarixində Dövlət Gömrük Komitəsi tərəfindən İqtisadi Əməkdaşlıq Təşkilatının üzv dövlətləri üçün virtual formatda "Tekstil materiallarının təsnifat xarakteristikası" mövzusunda potensialın gücləndirilməsi təlimi keçirilmişdir. "Tekstil materiallarının təsnifat xarakteristikası" mövzusunda keçirilən təlim gömrük sahəsində potensialın gücləndirilməsi məqsədilə təşkil olunub. İƏT üzv dövlətlərin gömrük xidmətlərinin 50-dən çox nümayəndəsinin iştirak etdiyi təlim çərçivəsində Dövlət Gömrük Komitəsinin Mərkəzi Gömrük Ekspertizası İdarəsinin əməkdaşları tərəfindən liflərin və sapların təsnifatı, tekstil toxuma növlərinin, tül və tikmə parçaların müəyyənləşdirilməsi və təsnifatı, xovlu parçaların təsnifatı, xalçaların və tekstil materiallarının müəyyənləşdirilməsi və təsnifatındakı problemlər mövzularında təqdimatlar əsasında ətraflı məlumat verilib, iştirakçıların sualları cavablandırılıb.



9 dekabr 2025-ci il tarixində İran İslam Respublikasının Astara şəhərində Azərbaycan Respublikası, İran İslam Respublikası və Rusiya Federasiyasının gömrük orqanları arasında Gömrük məsələləri üzrə işçi qrupun ilk iclası çərçivəsində gömrük xidmətlərinin rəhbər müavinlərinin görüşü keçirilmişdir.

10 dekabr 2025-ci il tarixində Dövlət Gömrük Komitəsində İran İslam Respublikasının Ərdəbil vilayətinin valisi Məsud İmami Yeganenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə sərhədkeçmə proseslərinin sürətləndirilməsi, ticarətin asanlaşdırılması, gömrük əməliyyatlarının sadələşdirilməsi istiqamətində əməkdaşlığın, eləcə də məlumat mübadiləsinin həyata keçirilməsinin perspektivlərinə dair məsələlər müzakirə olunub.



11 dekabr 2025-ci il tarixində Dövlət Gömrük Komitəsində Rusiya Federal Gömrük Xidməti rəhbərinin müavini Aleksey Timofeyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə iki ölkənin gömrük orqanları arasındakı işgüzar əməkdaşlıq münasibətlərinin perspektivləri, eləcə də sərhədkeçmə proseslərinin sürətləndirilməsi, şimal-cənub nəqliyyat dəhlizi boyunca yük axınlarının idarə olunmasına dair məsələlər müzakirə olunub, qarşılıqlı məlumat və təcrübə mübadiləsinin daha da genişləndirilməsinin vacibliyi vurğulanıb.



18 dekabr 2025-ci il tarixində Dövlət Gömrük Komitəsi tərəfindən İqtisadi Əməkdaşlıq Təşkilatının üzv dövlətləri üçün virtual formatda “Elektron məlumatların mübadiləsi” üzrə təcrübələrin bölüşdürülməsi ilə bağlı onlayn təlim keçirilmişdir.

18 dekabr 2025-ci il tarixində Dövlət Gömrük Komitəsində Birləşmiş Ərəb Əmirliklərinin Federal Kimlik, Vətəndaşlıq, Gömrük və Liman Təhlükəsizliyi qurumunun nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə iki ölkənin gömrük orqanları arasında səmərəli və işgüzar əməkdaşlıqdan məmnunluqla bəhs edilib, eyni zamanda qarşılıqlı əlaqələrin perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.



24 dekabr 2025-ci il tarixində Astara dövlət sərhədindən buraxılış məntəqəsinin neytral ərazisində Azərbaycan Respublikasının gömrük və sərhəd orqanlarının və İran İslam Respublikasının gömrük, sərhəd və yol idarəsinin nümayəndə heyətləri arasında görüş keçirilib. Görüşdə mövsümlə əlaqədar olaraq son günlərdə yük dövriyyəsinin artması fonunda sürətli keçidin təmin edilməsi və buraxılış sayının artırılması istiqamətində birgə səylərin daha da gücləndirilməsi məsələləri müzakirə edilib.

